# Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasına Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adının verilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin fərmanı*

Müstəqil Azərbaycan Respublikasının mühüm dövlətçilik təsisatlarından biri olan milli təhlükəsizlik orqanlarının formalaşması və inkişafında mühüm rol oynayan, xüsusi xidmət orqanları və sərhəd xidməti üçün yeni nəsil peşəkar və ixtisaslı kadrların hazırlanmasını, eləcə də peşə hazırlığının artırılmasını və təkmilləşdirilməsini həyata keçirən Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Zəngin və mənalı həyat yolunun 25 ilini milli təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş ümummilli lider Heydər Əliyev Azərbaycanın milli maraqlarına sədaqətlə xidmət etmiş, daim milli dövlətçilik ideallarını rəhbər tutaraq dövlət quruculuğu ənənələrinin əsasını qoymuşdur. Məhz Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi və siyasi uzaqgörənliyi, idarəçilik və təşkilatçılıq bacarığı, gərgin səyləri sayəsində bütün sahələrdə olduğu kimi, milli təhlükəsizlik sahəsində də milli prioritetlərə və milli maraqlara xidmət edən təhlükəsizlik orqanlarının fəaliyyətinin yeni təməl prinsipləri və istiqamətləri müəyyən olunmuş və Azərbaycanın təhlükəsizlik orqanlarının xalqa, vətənə sadiq quruma çevrilməsi mümkün olmuşdur.

Hazırda milli təhlükəsizlik orqanları qarşısında Azərbaycanın dövlət müstəqilliyini qorumaq, onun təhlükəsizliyini və demokratik sabitliyi təmin etmək, terrorçuluğa qarşı mübarizə sahəsində fəaliyyəti daha da gücləndirmək, ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin olunmasında iştirak etmək və digər milli maraqları qorumaq kimi mühüm vəzifələr durur. Bu, milli təhlükəsizlik orqanlarının müasir dövrün tələblərinə cavab verən yeni kadrlarla təmin olunmasını zəruri edir. Heydər Əliyev milli təhlükəsizlik orqanlarına və şəxsi heyətinə, milli kadr potensialının yaranmasına və möhkəmləndirilməsinə hər zaman xüsusi diqqət yetirmiş və Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Bu gün Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası Heydər Əliyev ənənələrini yaşatmaqla məşğuldur. Onun şərəfli ömür yolu hər bir vətənpərvər azərbaycanlı, xüsusilə də xalqımızın gələcəyi olan gənclər üçün əsl həyat məktəbidir.

Heydər Əliyevin milli təhlükəsizlik orqanlarının inkişafında əvəzsiz xidmətlərini nəzərə alaraq və onun xatirəsinin əbədiləşdirilməsi üzrə görülən tədbirlər istiqamətində Milli Təhlükəsizlik Nazirliyinin müraciətinin təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasına Heydər Əliyevin adı verilsin.
2. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2005-ci il*